# QARABAĞ: QIRMIZI SİYAHILARIN MÜASİR VƏZİYYƏTİ, YENİ YARADILACAQ QIRMIZI KİTABLARIN TƏRTİBİNDƏ ONLARIN ROLU

**Vaqif Novruzov**

*Gəncə Dövlət Universiteti, vnovruzov1@ramblerşru*

Qarabağın mürəkkəb geomorfoloji relyefi, füsunkar təbiəti bir çox nadir relikt və endem növlərin qorunub saxlanması üçün əlverişlidir. Bununla belə, burada bir çox bitki və heyvan növləri erməni vandalizmi nəticəsində nadirləşərək məhv olmuş və ya məhv olma təhlükəsinə düşmüşdür.

Ulu Öndər Heydər Əliyevin 25 iyul 1977-ci il tarixli Sərəncamı ilə Azərbaycanın flora və faunasının zəngin fondununun mühafizəsi üçün Azərbaycan Respublikasının "Qırmızı kitab"ı təsis edilmiş, 1989-cu ildə birinci, 2013-cü ldə ikinci nəşri çapdan çıxmışdır. Botanik və zooloqlar tərəfindən 109 növ heyvan, 140 nadir və nəsli kəsilməkdə olan bitki növü aşkarlanaraq, "Qırmızı kitab"a daxil edilmişdir. Birinci nəşr 140, ikinci nəşr 300 bitki növünü əhatə etmişdir. 140 növdən 30-unun (Fişer şterinbergiyası (*Sternbergia fischeriana (Herb) M.Roem*), Hirkan şümşadı (*İlex hyrcana Pojark),*adi şabalıd (*Castanea sativa Mill*), Kamilla süsəni (*İris camillae Grossh.),* azşüalı zərəfşan (*Zeravschania pauciradiata (Tamasch) M.Pimer*), Qafqaz xədicəgülü (*Qalanthus caucasicus (Baker.) Grossh),* itikənarlı süsən (*İris acutiloba C.A.Meyer),* uzunyapaqlı səhləb (*Cephalanthera longifolia (L.) Fritsch),* Şərq çinarı (*Platanus orientalis L.*), qaya dovşanalması (*Coteneastr saxatilis Poyark*), Qafqaz qaş səhləbi (*Ophrys caucasica Üoronov ex Grossh.*), üçfullu nektaroskordum (*Nektaroscordum tripedale (Trautv) Grossh*), vələsyarpaq azat (*Zelkova carpinifolia (Pall.) C.Koch.*), Alp vudsiyası (*Woodsia alpina (Bolt) S.F. Gray*) və s.) arealının əsas hissəsi işğal olunmuş ərazilər olmuşdur. 10 növün (Gözəl təkəsaqqal (*Scorzonera pulchra Lomak.*), Qarabağ tülpanı (*Tulipa karabachensis Grossh.),* Araz palıdı *(Quercus araxina (Trautv*) Grossh), Şimid dağ laləsi (*Tulipa schmidtii Fomin.*), şoranyer qarğasoğanı (*Gladiolus holophilus Boiss.*), Kuznetsov əsməsi (*Anemone kusnetzowii ex Grossh.),* Sağsağan gülxətmisi (*Alcea sachsachanica İljin*), adi meşə gilası (*Padus avium Mill.P.*), Zəngilan gəvəni *(Astragalus zangelanus Grossh.),* Qarabağ güləvəri (*Centaurea karabajhensis (Sosn.) Sosn.))* təbiətdə arealı yalnız Qarabağdır. Şuşanın Xəlfəli kəndi ərazisindən toplanmış kəklikotu növü ilk əvvəl *Thymus armeniaca Klokav. Des.Shorst, sonralar isə Thymus collinus M.Bieb.* adlandırılmışdır. Sonralar növün adının dəyişdirilməsi üçün yeni cəhdlər də edilmişdir. *Thymus collinus M.Bieb.* kimi növlərin "Qırmızı kitab"ın yeni nəşrinə daxil ediməsi məqsədəuyğundur.

"Qırmızı kitab"ın 2013-cü ildə çap olunmuş ikinci nəşrinə isə bəzi istisnalarla birinci nəşrdə olan bütün növlər daxil edilmişdir. Bu növlərin xilas edilməsi üçün tədbirlərin görülməsi barədə dəfələrlə beynəlxalq konfrans və simpoziumlarda, o cümlədən 2005-ci ildə Avstriyanın paytaxtı Vyana şəhərində keçirilən Botaniklərin XVII beynəlxalq konqresində dünya botanikləri qarşısında məsələ qaldırılmasına baxmayaraq, heç bir nəticəsi olmamışdır. Nadir və məhvolma təhlükəsinə məruz qalan həmin növlərin mühafizəsi yalnız "Qırmızı kitab"a daxil edilməklə başa çatmışdır.

İşğaldan azad olunmuş Zəngilan, Xocavənd, Ağdam, Ağdərə, Cəbrayıl, Laçın rayonları ərazilərində ardıc meşələri, Zəngilanda Şərq çinarı, Qubadlıda dağdağan, püstə ağacları yayılmışdır. Qarabağ ərazisində yerləşən Azıx, Tağlar, Şuşa şəhərindəki Xan, Qaxal, Duzdağ mağaralarında nadir endemik və reliktlərə rast gəlinir. Həmin qiymətli ağacların üzə çıxarılması vacibdir. Kəlbəcər, Şuşa, Laçın, Qubadlı, Zəngilan, Xankəndi, Ağdərə, Xocavənd ərazilərindən müxtəlif tədqiqatçılar tərəfindən toplanan 100-dən artıq şibyə növləri də floranın genefondu baxımından qiymətlidir. Nadir endemik şibyə növü olan *Ramalina montana Barkhal.* Kəlbəcər və Şuşa rayonlarından təsvir olunmuşdur (Barxalov,1969:203). *Diploschistes gypsaceus* (Ach.) Zahlbr. Cəbrayıl rayonu ərazisində əhəngli süxurlarda (Voronov,1915, Steiner, 1919:7), *D.scruposus* (Schreb.) Norman Kəlbəcər, Xankəndi, Laçın, Zəngilan rayonları ərazisilərdə (Бархалов, 1983:47), *Thamnolia. vermicularis* (Sw.)

Schaerer Kəlbəcər, Şuşa (Barxalov, 1969:218), *Rhizoplaca chrysoleuca* (Sm.) Zopf Ağdərə, Kəlbəcər, Şuşa, Laçın rayonlarında (Barxalov, 1983:164), *Lobothallia alphoplaca* (Wahlenb.) Hafellner Xankəndi, Laçın (Barxalov, 1944:63; Alverdiyeva, 2007:142), *Acarospora oxytona* (Ach.) A.Massal Şuşada Cıdır düzündə qayalıqlarda daş süxurlarından təsvir olunmuşdur (Barxalov, 1983:130). Şübhəsiz ki, nadir və nəsli kəsilməkdə olan növlərin tədqiqi üzrə mütəxəssislər tərəfindən Qarabağda intensiv monitorinqlər keçirilməsi, beynəlxalq səviyyədə qorunma meyarlarının müəyyənləşdirilməsi ilə Azərbaycan Respublikasının "Qırmızı kitab"ının III nəşri faktik materiallar əsasında tərtib olunacaqdır.

AR ETN Botanika İnstitutu, Naxçıvan Bioresurslar İnstitutu, Gəncə Dövlət Universitetinin kollektivləri bu istiqamətdə tədqiqatları müvəffəqiyyətlə davam etdirirlər.